# 3 mərhələli fəal dərsin sxemi

| *Mərhələlər* | *Məqsəd* | *Təlimatlar* | *Üsul və vasitələr* |
|---|---|---|---|
| ***Düşünməyə yönəltmə*** | • Şagirdlərin diqqətini dərsə cəlb etmək, mövzunun müzakirəsinə maraq oyatmaq;<br>• Şagirdləri fəaliyyətlərinin məzmunu haqqında məlumatlandırmaq: Dərsdə nəyə nail olmalıdırlar? Müəllim onlardan nə gözləyir? | • Dərsin mövzusunu deyin və yaxud şagirdlərin birindən bu adı ucadan oxumağı xahiş edin;<br>• Əgər mövzunun adında yeni söz varsa, yaxud problemli sualdan ibarətdirsə, şagirdlərin diqqətini buna yönəldin;<br>• Şagirdlərdən mətnin sonunda verilmiş, yaxud lövhədə yazdığınız sualları səsləndirməyi xahiş edin (suallar əvvəlcədən ya lövhədə yazılmalı, yaxud slaydda əks olunmalıdır). Əgər yeni termin varsa, izah edin, vacib anlayışları, fəaliyyət yollarını şərh edin;<br>• Şagirdləri məlumatlandırın ki, dərsin sonunda planlaşdırılmış nəticələrə nə qədər nail olduqlarını yoxlayacaqlar, həmçinin onların nəticələrinin necə ölçüləcəyini öncədən izah edin. | • Müəllimin qısa məlumatı;<br>• Söhbət;<br>• Görüntülü məlumatın təqdimatı;<br>• Sadə interaktiv üsullar: “beyin həmləsi”, “mikrofon”, “buzqıran” və s. |
| ***Dərketmə*** | • Şagirdlərə qısa müddət ərzində praktik tapşırıqları yerinə yetirə bilmələri üçün vacib informasiyaları vermək;<br>• Mövzunun mənimsənilməsi, təlim nəticələrinə nail olmaq. | • Şagirdləri tapşırıqları həll etməzdən əvvəl təlimatlandırın: yerinə yetirmə qaydaları, fəaliyyətin ardıcıllığı, həll etmə müddəti;<br>• Tapşırığın yerinə yetirilməsi: müəllim olaraq təşkilatçı, köməkçi, müzakirə aparıcısı kimi çıxış edin, daha çox müstəqil işə və qarşılıqlı öyrənməyə şərait yaradın. | • Mini-mühazirə;<br>• Dərslikdən mətnin oxunması;<br>• İş materiallarının təhlili;<br>• İKT və ya digər görüntülü vasitələrlə materialın öyrənilməsi;<br>• Cütlərlə və ya qruplarda müzakirə. |

| | | | |
|---|---|---|---|
| ***Düşünmə*** | • Əldə edilmiş nəticələri ümumiləşdirmək;<br>• Görülmüş işlərin məzmununu dəqiqləşdirmək;<br>• Qazanılmış biliklərin xülasəsini vurğulamaq;<br>• Məlum olanlar və gələcəkdə öyrənilməli olanlar arasında əlaqə qurmaq. | *Birinci mərhələdə*:<br>• Açıq suallardan istifadə edin (Nə? Kim? Niyə?);<br>• Emosiyaların ifadə edilməsinə şərait yaradın;<br>• Dəyərləndirmə xarakterində deyil, təsviri xarakterli şərhlər verin;<br>• Görülə biləcək işlər haqqında deyil, görülmüş işlər haqqında daha çox danışın.<br>*İkinci mərhələdə*:<br>• Səbəb haqqında soruşun (Niyə? Necə? Kim?);<br>• Cavabları dərinləşdirmək üçün suallar verin (Niyə bu yoxdur? Əgər olsaydı, nə dəyişərdi?);<br>• Alterantiv yollar axtarmağa sövq edin (Başqa cür etmək olardımı?);<br>• Nümunələr seçməyi təklif edin;<br>• Sərbəst fikirlərdən nümunələr gətirin.<br>*Üçüncü mərhələdə*:<br>• Şagirdləri gələcək fəaliyyətlərində üzərlərinə məsuliyyət götürməyə yönləndirin. | • Fərdi təqdimat;<br>• Cütlər və ya qrup təqdimatı;<br>• Müzakirə;<br>• Şifahi təqdimat;<br>• Yazılı hesabat;<br>• Kollektiv müzakirə. |